AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
9 İYUL 2025-ci il ÇƏRŞƏNBƏ № 138 (8186) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.A

# Xankəndi Kommunikesi:

## Yeni regional gündəliyin yol xəritəsi



**İşğalından azad edilən Qarabağ və Şərqi Zəngəzur bu gün tamamilə yeni bir mərhələyə qədəm qoyub. Bir zamanlar viran qalmış bu ərazilər indi genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparıldığı, həyatın sürətlə canlandığı, beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi mərkəz olub. Şuşa, Ağdam, Xankəndi, Laçın kimi şəhərlər artıq yalnız Azərbaycanın deyil, həm də regionun mühüm siyasi, iqtisadi və mədəni platformalarından birinə çevrilib. Burada keçirilən beynəlxalq zirvə görüşləri, forumlar və konfranslar dünyanın diqqətini bu bölgəyə yönəldir. Bütün bunlar Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin 2003-cü ildən bəri yürütdüyü düşünülmüş və qətiyyətli siyasətin nəticəsidir.**

Ötən günlərdə Qarabağ mötəbər bir tədbirin ünvanı kimi yenidən dünyanın diqqət mərkəzinə düşüb. 3-4 iyul tarixlərində Azərbaycanın tarixi şəhəri olan Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) 17-ci Zirvə görüşü keçirilib. Sammitin burada keçirilməsi, əslində İkinci Qarabağ müharibəsindən sonra regionda yaranan yeni geosiyasi reallığın təcəssümü idi. Prezident İlham Əliyevin təşəbbüsü ilə "Davamlı və İqlimə dayanıqlı Gələcək naminə İƏT-in Yeni Baxışı" mövzusuna həsr edilmiş Zirvə görüşündən əvvəl 1 iyul tarixində Ağdamda İƏT Gənclər, 2 iyulda Laçında İƏT Qadınlar və 2 iyulda Şuşada 6-cı İƏT Biznes forumları təşkil edilib. Dövlət başçısı İƏT-in 17-ci Zirvə görüşündəki çıxışında vacib məsələlərə toxunub. Prezident İlham Əliyev xüsusilə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən geniş bərpa və yenidənqurma işləri, Azərbaycanın regional enerji və nəqliyyat layihələrindəki əsas rolu, eləcə də beynəlxalq əməkdaşlıq çərçivəsində irəli sürdüyü uğurlu təşəbbüslər barədə geniş məlumat verib, həmçinin Qərbi Azərbaycan mövzusuna da diqqət çəkib.

İƏT-in 17-ci Zirvə görüşünün yekunu olaraq Xankəndi Kommunikesi qəbul edilib. Sənəddə Azərbaycanın maraqlarına uyğun gələn bəndlərin yer alması xüsusil seçilir. Bu da rəsmi Bakının re gionda aparıcı güc olmasını göstə rən amillərdən biridir. Bunda başqa, sənədin mətni ilə tanı olanda bir daha aydın olur k Azərbaycanın beynəlxalq arenad irəli sürdüyü təkliflər İƏT tərəfin dən dəstəklənir.

(davamı 2-ci səhifədə

(əvvəli 1-ci səhifədə)

Xankəndi Kommunikesində Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və quruculuq yüksək qiymətləndirilib. Təbii olaraq, təşkilat üzvləri müharibən əvvəl və sonra Qarabağda baş verən dəyişikliklərdən xəbərdardırlar. Üzv ölkələrin liderləri regiona səfər etməklə erməni vandalizminin və bərpa-quruculuğun əyani şahidinə çevriliblər. İkinci Qarabağ müharibəsindən sonra bir neçə il keçməsinə baxmayaraq, bu ərazilərdə meqalayihələr icra olunub. Kəndlər və şəhərlər yenidən həyata qayıdıb. Artıq minlərlə keçmiş məcburi köçkün öz yurduna qayıdıb. Qarabağ və Şərqi Zəngəzurun iqtisadi yüksəlişi İƏT-də öz töhfəsini verəcək. Xankəndi Kommunikesində bərpa və quruculuğun dəyər görməsi, həm də Azərbaycanın ərazi bütövlüyünə verilən siyasi mesajdır. Beləliklə, bəzi dövlətlərin Qarabağ və Şərqi Zəngəzuru ara-sıra "münaqişəli ərazilər" kimi tanımaq cəhdi İƏT tərəfindən tamamilə inkar olunur.

Kommunikedə bununla yanaşı, Ermənistandan qovulmuş azərbaycanlıların öz doğma yurdlarına ləyaqətli qayıdış hüququ bir daha təsdiqlənib. Hazırkı mərhələdə rəsmi İrəvan Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına geri dönməsini qəbul etməsə də, belə beynəlxalq sənədlərdə onların hüquqlarının tanınması və bu çağırışa dəstək verilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Bu kimi mövqelər beynəlxalq ictimaiyyətin məsələ ilə bağlı artan diqqətindən xəbər verir və gələcəkdə Ermənistanın bu məsələdə mövqeyini yumşaltmasına təzyiq göstərə bilər. Çünki Qərbi azərbaycanlıların indiki Ermənistan ərazisindən qovulması yaxın keçmişin hadisəsidir. Bu, sənədlərlə sübuta yetirilmiş reallıqdır. İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu beynəlxalq qurumun üzv dövlətlərinin bu qayıdış hüququnu dəstəkləməsi, Qərbi azərbaycanlıların öz torpaqlarına qayıdış prosesinin bəlkə də yaxın gələcəkdə reallaşacaq ən vacib mərhələsinə çevrilə bilər. Sənəddə Qərbi Azərbaycan məsələsinin yer alması, həm də bu istiqamətdə aparılan işlərin uğurlu olmasından xəbər verir. Prezident İlham Əliyev mövzunu daim diqqətdə saxlayır və beynəlxalq tribunalardan bu problemi dilə gətirir. Dövlət başçısı Zirvə görüşündəki nitqində bildirdi ki, Qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylər bundan sonra da davam etdiriləcək.



Zirvə görüşünün mövzusuna uyğun olaraq İƏT-in gələcək gündəliyində iqtisadi dayanıqlılıq və iqlimə davamlılıq əsas prioritetlər kimi müəyyən edilib. Bu, təşkilatın üzv ölkələrində iqtisadi inkişafın yalnız qısamüddətli deyil, uzunmüddətli və ekoloji baxımdan təhlükəsiz şəkildə aparılmasına yönəlmiş bir yanaşmadır. Qlobal iqlim çağırışlarının fonunda regionda yaşıl iqtisadiyyat modelinə keçid və risklərə davamlı infrastrukturun qurulması zərurəti getdikcə aktuallaşır. Bu baxımdan, İƏT ölkələrinin birgə fəaliyyət göstərməsi həm sosial rifahın təmin olunmasına, həm də ekoloji təhlükələrin qarşısının alınmasına şərait yaradacaq. Dayanıqlı inkişaf hədəflərinə çatmaq üçün gələcək fəaliyyət planlarının bu prioritetlərə əsaslandırılması region üçün strateji əhəmiyyət kəsb edir.

Kommunikedə İƏT regionunda qadın liderlərin iqlim və ətraf mühit məsələlərinə verdiyi töhfələr xüsusi qeyd olunub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın və Türkiyə Respublikasının Birinci xanımı Əminə Ərdoğanın ekoloji təşəbbüsləri, xüsusilə "SıfırTullantı" təşəbbüsü yüksək qiymətləndirilib. Bu təşəbbüslər cəmiyyətin müxtəlif təbəqələrini əhatə edən genişmiqyaslı ictimai maarifləndirmə ilə yanaşı, praktiki ekoloji tədbirlərlə də müşayiət olunur. Qadın liderlərin bu proseslərdə fəal iştirak etməsi regionda ekoloji məsuliyyətin daha dərin və davamlı şəkildə qurulmasına xidmət edir.

Sənəddə İƏT Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlaması və İƏT Tədqiqat Mərkəzinin fəaliyyətinin genişləndirilməsi vacib hesab edilib. İƏT-in Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlaması, təşkilatın enerji təhlükəsizliyi və iqlim dəyişikliklərinə qarşı mübarizə sahəsində konkret addımlar atdığını göstərir. Bu mərkəz üzv dövlətlər arasında bərpaolunan enerji sahəsində əməkdaşlığı təşviq edəcək, texnologiya transferini asanlaşdıracaq və ortaq layihələrin reallaşdırılmasına şərait yaradacaq. Eyni zamanda, Tədqiqat Mərkəzinin fəaliyyətinin genişləndirilməsi regionda iqtisadi təhlillərin və strateji qərarların daha elmi əsaslarla aparılmasına imkan verəcək. Bu mərkəz həm də innovasiya və rəqəmsallaşma sahələrində yeni biliklər və tövsiyələrlə regionun iqtisadi inkişafına töhfə verə bilər. Hər iki strukturun aktivləşməsi İƏT-in institusional dayanıqlılığını və praktik fəaliyyət gücünü artırır.

Bəyanatda "İƏT Sərmayə", Ticarət və Sənaye Palatalar Şurası, vahid informasiya məkanı, İƏT Ticarət və İnkişaf Bankının mandatının gücləndirilməsi dəstəklənib. Bu təşəbbüslər region daxilində ticarət və sərmayə axınını asanlaşdırmaqla, İƏT ölkələrinin qarşılıqlı iqtisadi asılılığını gücləndirməyə yönəlib. Ticarət və İnkişaf Bankının mandatının genişləndirilməsi isə regional iqtisadi layihələrin maliyyələşdirilməsində mühüm rol oynayacaq. Bu mexanizmlər həm biznes dairələri, həm də hökumətlər arasında etibarlı əməkdaşlıq mühitinin formalaşmasına xidmət edəcək. Beləliklə, İƏT regionunda iqtisadi inteqrasiya daha praktik və institusional əsaslar üzərində qurulacaq.

Sənəddə dayanıqlı şəhərsalma məsələsinə xüsusi diqqət ayrılıb və bu kontekstdə 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun (WUF13) əhəmiyyəti vurğulanıb. 2002-ci ildən etibarən keçirilən Forum ilk dəfə olaraq İƏT regionunda təşkil olunacaq və şəhərlərin sosial, iqtisadi və ekoloji dayanıqlılığını təmin etmək üçün beynəlxalq təcrübənin mübadiləsi üçün mühüm platforma olacaq. Dayanıqlı şəhərsalma həm də ətraf mühitin mühafizəsi, infrastrukturun inkişafı və urbanizasiya problemlərinin kompleks həllinə yönəlik strateji yanaşmadır. Forum çərçivəsində qəbul olunacaq tövsiyələr İƏT üzv dövlətlərinin milli şəhər siyasətlərinə də ciddi təsir göstərə bilər. Bakının ev sahibliyi etməsi Azərbaycanın bu sahədə artan nüfuzunun və beynəlxalq etimadın göstəricisidir.

**Musa BAĞIRLI,**
**"Respublika".**